UOT 94 (479.24)

# AZƏRBAYCAN RESPUBLİKASI VƏ İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI: DİPLOMATİK MÜNASİBƏTLƏRDƏ 20 İL

**A.P.ƏHMƏDOV**
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*
*elelyonnn@yahoo.com*

***Azərbaycan müstəqillik əldə etdikdən sonra İslam Konfransı Təşkilatına üzv olmuşdur. Biz Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığına xüsusi əhəmiyyət veririk.***

**İlham ƏLİYEV**

*Məqalə Azərbaycan Respublikasının 1991-2011-ci illərdə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə qurulan çoxşaxəli diplomatik münasibətlərinin əsas aspektlərinə həsr olunmuşdur. Bu illər ərzində Azərbaycan Respublikası təşkilatın fəal üzvünə çevrilərək, İƏT-lə siyasi, iqtisadi və mədəni sahələrdə aktiv əməkdaşlığa yol açmışdır.*

**Açar sözlər:** İKT, İƏT, təşkilat, islam, konfrans, mədəniyyət, təhsil, İSESKO, əməkdaşlıq, İİB, qətnamə, həmrəylik, Dağlıq Qarabağ, konflikt, siyasi, terror

XX əsrin II yarısında bir-birinin ardınca Qərb müstəmləkə rejimindən qurtulan bir çox müsəlman ölkəsi suverenliyinin bərqərar olunmasından sonra əvvəlki illərdə olduğu kimi islam həmrəyliyinə yüksək səviyyədə maraq duymağa başlamış və vahid təşkilatın yaradılması uğrunda ciddi mübarizəyə qalxmışlar. 1969-cu ildə müsəlman xalqlarının həmrəyliyinin təcəssümü olaraq həyata vəsiqə alan İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ötən 40 il ərzində sülh və əmin-amanlıq naminə fəaliyyətini davam etdirə bilmişdir (11, 48).

Qeyd etmək lazımdır ki, təşkilat bir neçə ay bundan əvvəl adını dəyişdirmiş və emblemini təzələmişdir. Əvvəlki adı İslam Konfransı Təşkilatı (İKT) olan İƏT 2011-ci ilin iyun ayının 28-də Qazaxıstanın paytaxtı Astanada İKT-yə üzv olan ölkələrin xarici işlər nazirlərinin 38-ci sessiyasında adının və embleminin dəyişdirilməsini rəsmən bəyan etmişdir. Qurumun emblemi İƏT xarici işlər nazirləri şurasının sessiyasına qədər baş katiblikdə təsdiq olunmuşdur (10). Konfrans sözünün əməkdaşlıq ilə əvəz olunması təşkilata üzv olan ölkələrin əksəriyyəti tərəfindən bəyənilmiş və səs çoxluğu ilə qəbul olunmuşdur. Həqiqətən də "əməkdaşlıq" ifadəsi İƏT və bu quruma üzv olan ölkələr arasında sıx birlik və əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndiril-

məsinə xidmət edəcəkdir. İkinci şəkildəki emblemdən göründüyü kimi Kəbə təsvirinin Yer kürəsinin mərkəzində verilməsi müsəlman ümmətinin vahid konsepsiya ətrafında birləşdiyini, bugünkü gündə isə həmrəyliyin nə qədər vacib olduğunu simvolizə edir. İƏT-in təsis olunmasında Qurani-Kərimdə keçən "islam ümməti" istilahı təməl əsas kimi qəbul olunmuşdur[1].





Hər bir müstəqil müsəlman dövləti kimi Azərbaycan Respublikası da keçən əsrin sonlarında istiqlalını bərpa etdikdən sonra xarici siyasət kursunu müstəqil əsaslarda inkişaf etdirmək və dünya birliyində təmsil olunmaq baxımından beynəlxalq təşkilatlarla siyasi-diplomatik münasibətlərin qurulması işini ən qısa zamanda gerçəkləşdirməyə müvəffəq olmuşdur. 1991-ci ilin 18 oktyabr tarixində dövlət müstəqilliyinə dair akt qəbul edən Azərbaycan Respublikası çox keçmədən, elə həmin ilin dekabr ayının 8-də Seneqalın paytaxtı Dakarda müsəlman həmrəyliyini özündə əks etdirən İKT[2]-nin dövlət və hökumət başçılarının V konfransında 46-cı tam hüquqlu üzvü seçilir (1, 24). Bununla da müstəqilliyin ilk illərində İKT Azərbaycan Respublikanın daxil olduğu ilk beynəlxalq siyasi qurum olur. Eyni zamanda da Azərbaycan keçmiş SSRİ respublikaları arasında İKT-yə üzv olan ilk ölkədir (9, 36).

Üzvlüyə qəbul olunduğumuz ildən etibarən İKT Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması işini birmənalı şəkildə dəstəkləyən yeganə siyasi təşkilat olmuşdur[3]. Eyni mövqe münasibətlərin davam etdiyi 20 il ərzində dəyişməz olaraq qalır. İKT 1986-cı ildə Sovet Azərbaycanında "Dünya müsəlmanları sülh uğrunda mübarizədə" adlı beynəlxalq konfrans təşkil etməklə gələcəkdə ikitərəfli əməkdaşlıq üçün uğurlu zəmin yaratmış olur (12). Bu gün artıq təşkilatla qurulan çoxşaxəli əlaqələr Azərbaycanın İƏT daxilində söz sahibinə çevrildiyini deməyə əsas verir. 1991-1993-cü illər ərzində Azərbaycan Respublikası İKT-də əsasən Qafqaz Müsəlmanları Ruhani İdarəsi

[1] Ətraflı məlumat üçün bax: *Abdullah al-Ahsan The Organization of The Islamic Conference, The International Institute of Islamic Thought: Herndon, 1988, USA s. 2*

[2] İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti (İƏT) bəzən dini qurumun fəaliyyəti kimi təqdim olunur. Bu, İƏT haqqında yanlış təsəvvür yaratmaqdadır. Təşkilat siyasi əsaslarda fəaliyyət göstərən beynəlxalq qurumdur. İƏT ümumilikdə bölmələri və alt qurumları olan geniş siyasi və sülh təşkilatıdır. 1969-cu ildə təsis olunarkən BMT-nin sülhməramlı fəaliyyəti nümunə təşkil etmişdir. Hal-hazırda Azərbaycan Respublikası da daxil olmaqla İƏT-in müsəlman ölkələrindən meydana gələn 57 tamhüquqlu üzvü vardır. İƏT-ə bağlı olaraq fəaliyyət göstərən qurumun ən böyük maliyyə institutu İslam İnkişaf Bankı (İİB), elm-təhsil və mədəniyyət sahəsində uğurlu fəaliyyəti ilə seçilən İSESKO-dur. **Bax:** www.oic-oci.org

[3] Qeyd etmək lazımdır ki, 1991-1995-ci illərdə Dağlıq Qarabağ münaqişəsi İƏT sənədlərində "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə" adlandırılırdı. Lakin sonrakı illərdən etibarən münaqişə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlandırılmağa başlandı.

və qismən də Ali Sovet səviyyəsində təmsil olunmuşdur. Diplomatik səylərin yetərsizliyi ikitərəfli münasibətlərin tənzimlənməsinə ciddi təsir göstərmişdir.

Lakin 1994-cü ildən Azərbaycan-İKT münasibətlərində əsaslı əməkdaşlıq üçün yeni zəmin yarandı. Qurumun həmin ilin 13-15 dekabr tarixlərində Mərakeşin paytaxtı Kasablanka şəhərində keçirilmiş İKT-yə üzv olan ölkələrin dövlət başçılarının VII konfransında ilk dəfə rəsmi şəkildə təmsil olunan Azərbaycan Respublikası bu konfransın nəticələrindən siyasi baxımdan yararlana bildi (4). Müstəqil Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin həmin konfransda iştirakı dövlətimizin dünya birliyi və ictimaiyyəti tərəfindən tanınması istiqamətində atılan mühüm addım kimi qiymətləndirildi. Heydər Əliyev bu mötəbər toplantıda ermənilərin Azərbaycan torpaqlarında həyata keçirdiyi işğalçılıq faktını müsəlman dünyasına və Avropa dövlətlərinə çatdıra bildi. Bu baxımdan müsəlman ölkələrinin liderləri Azərbaycana maraq göstərərək Dağlıq Qarabağ münaqişəsinin həll olunmasına dəstək verəcəklərini bildirmiş və ikitərəfli əlaqələrin möhkəmləndirilməsinin zəruriliyini önə çəkmişlər. Bu konfransda Heydər Əliyev Səudiyyə Ərəbistanı kralı və bir çox müsəlman ölkələrinin başçıları və hökumət nümayəndələri ilə səmərəli görüşlər keçirərək Azərbaycan həqiqətlərinin bütün dünyaya təbliğ olunmasına nail olmuşdur. Tədbirin sonunda Asiya dövlət başçıları adından yekun çıxış Heydər Əliyevə həvalə olunmuşdur. Heydər Əliyev Asiya dövlət başçıları adından ona yekun sözü verən İKT rəhbərliyinə təşəkkür etmiş və bu addımı yüksək qiymətləndirərək demişdir: *"İcazə verin, sizi əmin edim ki, Asiya regionunun müsəlman dövlətləri, o cümlədən Azərbaycan İslam Konfransı Təşkilatının fəaliyyətində, habelə Zirvə toplantısında qəbul edilmiş qərarların ardıcıllıqla yerinə yetirilməsində öz səylərini durmadan artıracaq, bu təşkilatın nüfuzunun daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməyəcəkdir"* (5, 10-11). Keçən illər ərzində durmadan möhkəmlənən Azərbaycan-İƏT əməkdaşlığı görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi kimi qiymətləndirilərək öz təsdiqini tapdı. İndi Azərbaycan Respublikası İƏT-də son dərəcə praqmatik və düşünülmüş siyasi səriştəyə malik olan Azərbaycan Prezidenti İlham Əliyevin dəstəyi və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın sülhməramlı fəaliyyəti ilə bütün İslam Şərqində yüksək nüfuz qazanaraq təşkilatın da diplomatik-mədəni fəaliyyətinin şöhrətlənməsinə səbəb olmuşlar.

Heydər Əliyev üç ildən sonra 1997-cilin 9-11 dekabr tarixlərində İran İslam Respublikasının paytaxtı Tehranda İKT-yə üzv olan ölkələrin dövlət başçılarının VIII zirvə konfransında iştirak edərək daha bir uğura imza atmışdır (5, 193). Həmin konfransda İran tərəfi Azərbaycanın haqq işini dəstəklədiyini dilə gətirmişdir[1]. Heydər Əliyev bu konfransda da geniş nitq söyləyərək müsəlman dünyasının nəzərlərini Azərbaycana yönəldə bilmişdir. Tədbirin

[1] İran İƏT həyata vəsiqə aldığı 1969-cu ildən bu təşkilatın tam hüquqlu üzvüdür və bu gün də qurumda aktiv fəaliyyəti ilə seçilməkdədir. Bu baxımdan İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsini dəstəkləməsi kifayət qədər əhəmiyyət daşıyır. Lakin ikili standartların mövcud olduğu dünyada İran digər beynəlxalq təşkilatlarda, məsələn BMT-də Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyən qətnamələrin lehinə səs verilməsində İƏT-dəki aktivliyi nümayiş etdirməyə tələsmir.

yekununda Azərbaycana iqtisadi yardım olunması göstərilmiş və Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində işğalçı Ermənistandan Azərbaycan torpaqlarını boşaltması üzv dövlətlər tərəfindən birmənalı şəkildə tələb olunmuşdur. Göründüyü kimi təşkilata tam hüquqlu üzv olduqdan sonra Azərbaycan Respublikası xarici siyasətinin inkişaf etdirilməsi və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qurumun yüksək kürsüsündən dünya birliyinə problemin mahiyyətini çatdırmışdır. Ermənilər Azərbaycanın bu diplomatik təzyiqi qarşısında başqa vasitələrə əl ataraq böhtan xarakterli bəyanatlar verməklə dünya birliyini çaşdırmaq istəsələr də faktlar qarşısında aciz qaldıqlarını etiraf etməyə məhkumdurlar.

Ermənistan Respublikasının informasiya blokadasında olduğu bir zamanda Azərbaycan–İƏT diplomatik münasibətləri dinamik şəkildə inkişaf edir. Münasibətlərimiz gün keçdikcə daha da yüksəlir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşkilat ilə mövcud olan əlaqələrimizin yüksək təmələ söykəndiyini xüsusilə qeyd etməsi ikitərəfli münasibətlərin yeni mərhələsində diplomatiyamızın İƏT daxili uğurlarını artırmışdır.

İslam mədəniyyətinin Azərbaycana hələ VII əsrdən daxil olması bu torpaqlarda nə qədər böyük zəngin islam irsinin inkişaf etdiyini deməyə əsas verir. Bu gerçəklik Azərbaycanın tarixən olduğu kimi bugünkü gündə də islam dünyasının bir parçası olduğunu sübut edir.

Müsəlman ölkələrinin nüfuzu, dünya siyasətindəki yeri və rolu, yəqin ki, başqa amillərlə yanaşı həm də bu ölkələrdə yaşlı nəsillə müqayisədə gənclərin üstünlük təşkil etməsi ilə birbaşa əlaqədardır. Bu üzdən islam həmrəyliyinin əsas daşıyıcıları olan gənclər təşkilatlanmağa daha çox meyl etməklə həyatın bütün sahələrində, ölkələrinin problemlərinin həllində maraqlı tərəf kimi çıxış edirlər. 2004-cü ilin 1-3 dekabr tarixlərində Azərbaycan hökumətinin təşəbbüsü ilə Bakıda İKT-yə üzv olan ölkələrin Gənclər Forumunun təsis edilməsi islam gəncliyinin bu sahədə mühüm addımlar ata bilmək qabiliyyətini bir daha sübut etdi (5, 23). Ötən bu illər ərzində İKT GF-nun fəaliyyəti genişlənmişdir. Forumun baş katibi həmyerlimiz Elşad İskəndərov, mədəniyyət məsələləri üzrə baş əlaqələndirici Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva sülh və əmin-amanlıq naminə fəaliyyətlərini uğurla davam etdirməkdədirlər. Azərbaycan gəncliyi ilə müsəlman ölkələrinin gəncləri arasında dostluq və əməkdaşlıq körpüsü olan İKT GF-u Azərbaycan həqiqətlərinin dünya dövlətlərinin gənclər təşkilatlarında da təbliğ olunmasında böyük rola malikdir. 2006-cı ilin 3 sentyabr tarixində İKT GF-u İstanbulda daimi qərargahının açılışı mərasimində *"Qarabağ: faktlar və nəticələr"* adlı kitabı ictimaiyyətə təqdim edə bilmişdir. Nəinki gənclər təşkilatlarında eləcə də beynəlxalq parlamentlərlə də bu baxımdan əlaqələr qurmaqdadırlar. 2008-ci ildə Leyla Əliyevanın müəllifi olduğu *"Xocalıya Ədalət"* beynəlxalq kampaniyasının **(www.justiceforkhojaly.org)** saytı yaradılaraq bütün dünyaya yayımlanmışdır (5, 28).

Prezident İlham Əliyevin 2005-ci ilin 7 dekabr tarixində İKT-yə üzv

olan ölkələrin Səudiyyə Ərəbistanı Krallığının Məkkə şəhərində keçirilən III fövqəladə zirvə toplantısında yüksək tərkibdə iştirakı ikitərəfli münasibətlərdə yeni mərhələ təşkil etmişdir (6, 21). Xalqımızın ağrılı yeri olan erməni işğalının dövlət başçısı tərəfindən bu mötəbər toplantıda səsləndirilməsi müsəlman ölkələrinin başçıları tərəfindən diqqətlə qarşılanmış və Azərbaycanın haqq işi üzv dövlətlər tərəfindən bir daha dəstəklənərək ermənilərin işğalçı siyasəti pislənmişdir. Beynəlxalq terrorizm ilə mübarizədə İKT-nin barışmaz mövqeyinin Azərbaycan Respublikası tərəfindən bütün hallarda dəstəkləndiyini dilə gətirən Prezident İlham Əliyev demişdir: *"Azərbaycanda erməni terrorçularının törətdikləri 30-dan artıq terror aktları nəticəsində 2 mindən çox günahsız Azərbaycan vətəndaşı qətlə yetirilmiş, on minlərlə insan xəsarət almışdır. Terror aktlarında dinlə bağlılıq axtaranlardan fərqli olaraq, biz ermənilərin törətdikləri vəhşiliklərə bu mövqedən yanaşmırıq. Terrorçuluğun dini kökləri yoxdur"* (10, 192). Kifayət qədər lakonik şəkildə fikrini izah edən dövlət başçısı İlham Əliyev düzgün olaraq qeyd etmişdir ki, terror və din bir-birinə yadddır. Lakin ermənilərin hər vəchlə işğal altında saxladıqları Azərbaycan torpaqlarında həyata keçirdikləri terror planlarında tarixi islam abidələrini də hədəf almaları onların dünyəvi dəyərlərlə yanaşı mənəvi dəyərlərə də hörmət etmədiklərini çılpaqlığı ilə əks etdirməkdədir.

2006-cı il Azərbaycan-İƏT siyasi əməkdaşlığı və təhsil-elm, mədəniyyət əlaqələrinin genişlənməsi və Bakıda bir sıra mötəbər konfransların keçirilməsi ilə yadda qalmışdır. İKT-yə üzv olan ölkələrin xarici işlər nazirlərinin 33-cü sessiyası iyun ayının 18-də məhz Bakıda keçirilmişdir. Bu tədbir Azərbaycan həqiqətlərinin bütün dünyaya bəyan olunması istiqamətində seçilmiş düzgün strategiya olaraq əhəmiyyətli olmuşdur. Sessiyanın açılışında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransın müsəlman dünyası üçün vacib qərarlar qəbul etmək və ölkəmizin düşmüş olduğu problemin, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına böyük dəyər verəcəyini xüsusilə qeyd edərək demişdir: *"Tarixi baxımdan Dağlıq Qarabağ Azərbaycan torpağıdır, ermənilər oraya XIX əsrin əvvəllərində gəlmişlər. Hüquqi cəhətdən Azərbaycanın ərazi bütövlüyü tanınır və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Siyasi cəhətdən Azərbaycanın mövqeləri daha da möhkəmlənir və beynəlxalq təşkilatların dəstəyi bizim üçün çox əhəmiyyətlidir. O cümlədən İslam Konfransı Təşkilatının mövqeyi və artan nüfuzu bizim siyasətimizə daha da böyük güc verir"* (5, 16). Mübaliğəsiz demək mümkündür ki, dövlət başçısının Azərbaycan həqiqətlərinin doğru-düzgün təbliğ olunması istiqamətində yürütmüş olduğu son dərəcə düşünülmüş siyasət müsəlman ölkələrinin liderləri tərəfindən həssaslıqla qarşılanmış və dövlət başçıları problemin həll olunması işində həmrəylik nümayiş etdirmişlər.

Həmin ilin 26 noyabr tarixində Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva müsəlman dünyasının ən böyük mədəniyyət mərkəzi və İƏT-in bu sahədə mədəniyyət siyasətini inkişaf etdirən İSESKO-nun xoşməramlı səfiri yüksək adına layiq

görülmüşdür (8). Qeyd etmək lazımdır ki, Mehriban Əliyeva bu şərəfli ada layiq görülən dördüncü və ilk qadın xoşməramlı səfir olmuşdur. Onun nəcib və çoxşaxəli mədəni fəaliyyəti bütün müsəlman dünyasının birinci xanımlarına nümunə təşkil etmişdir.

Həmin il çərçivəsində sentyabr ayının 11-də Bakıda İƏT-ə üzv olan ölkələrin turizm nazirlərinin yüksək səviyyəli V konfransı da baş tutmuşdur (8). Bu konfrans ölkəmiz üçün kifayət qədər əhəmiyyət kəsb etmişdir. Böyük turizmin inkişafı üçün əlverişli iqlim şəraiti olan Azərbaycanda bu sahənin inkişaf etdirilməsi üçün aparıcı müsəlman ölkələrindən Türkiyə, Səudiyyə Ərəbistanı Krallığı, Küveyt, Malayziya kimi ölkələrin təcrübəsindən yararlanılması tövsiyə olunmuşdur. Eyni zamanda da Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən respublikanın işğal olunmuş ərazilərində ermənilər tərəfindən dağıdılmış və məhv edilmiş maddi mədəniyyət nümunələri və eləcə də islam irsini tərənnüm edən orta əsr məscid və türbə komplekslərinin də erməni vandalizminin qurbanına çevrildiyi qeyd olunmuş və videoçarx nümayiş etdirilmişdir.

2007-ci ilin 1-3 noyabr tarixlərində, İKT GF-nun təşəbbüsü, BMT İnkişaf Proqramının, Avropa Şurasının (AŞ) və İSESKO kimi mötəbər təşkilatların Heydər Əliyev Fondu ilə birgə "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda keçirdiyi konfrans islam gəncliyi adına atılmış mühüm addım olaraq qiymətləndirilmişdir. 2008-ci ilin 10-11 iyun tarixlərində Mehriban Əliyevanın təşəbbüsü ilə "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum keçirilmişdir ki, bu forumda Mehriban Əliyeva İKT-nin baş katibi Əkmələddin İhsanoğlu tərəfindən "İKT-nin humanitar məsələlər üzrə xüsusi elçisi" diplomu ilə təltif olunmuşdur. Həmin ilin 6-8 oktyabr tarixlərində İKT-yə üzv olan ölkələrin təhsil nazirlərinin IV konfransı, Bakının 2009-cu il üçün İslam mədəniyyətinin paytaxtı elan olunduğu il çərçivəsində 13-15 oktyabr tarixlərində İKT mədəniyyət nazirlərinin VI konfransı və bir sıra mühüm nəticələrlə yadda qalan konfrans və simpoziumlar keçirilmişdir (8). Bundan əlavə 2008-ci ilin 14 mart tarixində BMT Baş Məclisinin 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərindəi vəziyyət"ə dair qətnamənin səs çoxluğu ilə qəbul olunmasında yenə də İKT-yə üzv olan ölkələrin birmənalı dəstəyini hiss etdik. Ümumilikdə İKT xarici işlər nazirlərinin 2000-2011-ci illərdə qəbul etdiyi qətnamələr Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi ilə yanaşı, onun milli maraqlarına cavab verən sənədlər olmuşdur (8). Bu hadisə onu göstərir ki, İslam Əməkdaşlıq Təşkilatı təhsil və mədəniyyət sahələri ilə yanaşı öz siyasi aktivliyini də bəyan etməyə qadirdir.

Müstəqilliyinin 20-ci ildönümünü yaşayan Azərbaycan Respublikası İƏT ilə qurulan əməkdaşlığının da 20-ci il dönümünü qeyd edir. Keçən illər ərzində dövlətimiz siyasi-iqtisadi qüdrətini artıraraq regionda olduğu kimi İƏT-də də öz maraqlarını müdafiə edə bilmişdir. İndi regionda baş tutan bütün qlobal layihələrdə Azərbaycan söz sahibidir. Ermənistan isə geriləməkdədir.

Azərbaycan hər zaman qonşuları ilə sülh şəraitində yaşamış və heç bir dövlətin ərazisini işğal etməmişdir. Sivil dünyanın gözləri qarşısında Ermənistan Respublikasının həyata keçirməyə çalışdığı kortəbii siyasət İƏT və bu təşkilata üzv olan ölkələri narahat etməyə bilməz. 1991-ci ildən bugünə qədər İƏT-in zirvə və xarici işlər nazirlərinin konfranslarında Azərbaycan Respublikasının ərazi bütövlüyü bütün hüquqi norma və prinsiplər nəzərə alınaraq dəstəklənmiş və qurumun Ermənistan-Azərbayacan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında göstərmiş olduğu yekdil mövqe dəyişməzdir. Çoxtərəfli münasibətlərimizin inkişaf etdirilməsində bu prinsip aparıcı xətt olaraq qalır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi: Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyi. // Azərbaycan Respublikasının İKT ilə əməkdaşlığı (arayış və sənədlər), Ər-Riyad, 2000, 164 s.
2. AR XİN. Azərbaycanın xarici siyasəti (sənədlər məcmuəsi), 18 cilddə, II c., 2001-2009-cu illər, Bakı: "Qoliaf nəşriyyat evi" MMC, 789 s.
3. Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi. 25 cilddə, Azərbaycan cildi, Bakı: Elm, 2007, 884 s.
4. AR XİN. İKT və İKT ölkələri idarəsi, AR-in SƏK-dakı səfirliyi ilə yazışma, qovluq №21.
5. Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında. Məsləhətçi A. Nadirov / Bakı: Apastrof, 2008, 404 s.
6. Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərnəşr, 2005, 752 s.
7. Əhmədov A. İslam konfransı təşkilatının təşəkkül tarixindən. // Milli Azərbaycan Tarixi Muzeyinin əsərləri. Bakı: Elm, 2006, s. 191-200.
8. Əhmədov E. İslam Konfransı Təşkilatının yaradılmasından 40 il, Azərbaycanın bu beynəlxalq təşkilata qəbul olunmasından 18 il keçir. "Xalq qəzeti" Bakı, 2010, 8 yanvar, № 4.
9. İbayev V. İslam Konfransı Təşkilatı (monoqrafiya). Bakı: Elm, 1998, 95 s.
10. İKT-nin adı dəyişdi. / www.trend.az
11. Dursun D. İslam ensiklopediyası: 27 cilddə, XXIII c., İstanbul: Diyanət vəqfi nəşriyyatı, 2001, 476 s.
12. Участникам Международной конференции «Мусульмане в борьбе за мир». Газ. «Бакинский рабочий» Баку, 1986, 2 октября, № 229.


## АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА И ОРГАНИЗАЦИЯ ИСЛАМСКОГО СОТРУДНИЧЕСТВА: 20 ЛЕТ ДИПЛОМАТИЧЕСКОГО СОТРУДНИЧЕСТВА


**А.П.АХМЕДОВ**


## РЕЗЮМЕ


За прошедшие годы Азербайджанская Республика успешно наладила всесторонние связи с ОИС. Чуткое отношение организации к урегулированию армяно-азербайджанского Нагорно-Карабахского конфликтов, переговоры в ООН, проводимые с целью поддержки правого дела нашей республики, является проявлением активности Азербайджана в работе в рамках ОИС. Связи в экономической и культурной сфере также находятся на высоком уровне.

В статье исследуются основные аспекты сотрудничества Азербайджанской Республики с ОИС, подчеркивается однозначная позиция данной организации в вопросе

разрешения армяно-азербайджанского, Нагорно-Карабахского конфликтов.

**Ключевые слова:** ОИК, ОИС, организация, ислам, конференция, образование, ИСЕСКО, сотрудничество, резолюция, солидарность, ИБР, Нагорный Карабах, конфликт, политический, террор

## REPUBLIC OF AZERBAIJAN AND ORGANIZATION OF ISLAMİC COOPERATİON: THE 20TH ANNIVERSARY OF THE COLLABORATION

**A.P.AHMADOV**

**SUMMARY**

The Republic of Azerbaijan has achieved success to build polygonal connections with the OIC within last years. It showed sensibleness in the direction of regulating the Armenian-Azerbaijan Nagorny Karabakh conflict and negotiations carried out at UN reflect political activity of Azerbaijan. The collaboration in economical and cultural areas is on high-level as well.

The article investigates the basic aspects of collaboration of the OIC with the Republic of Azerbaijan, and over-emphasizes the univocal position of the OIC in the direction of the solution of the Nagorny Karabakh conflict.

**Key words:** OIC, organization, Islam, conference, cultural, education, ISESCO, cooperation, IDB, Nagorny Karabakh, conflict, political, terror